2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli 50 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 26 dekabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsinin 20 və 21 saylı seçki məntəqələrində səsvermə günü yol verilmiş qanun pozuntularının aradan qaldırılması üçün Həsənov Tarverdi Mövsüm oğlu və digərləri tərəfindən 2014-cü il dekabrın 25-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.2-ci və 112.3-cü maddələrinin tələblərinə uyğun olaraq göndərilməmişdir. Belə ki, 112.2-ci maddənin tələbinə görə Seçki Məcəlləsinin 112.1-ci maddəsində göstərilən şəxslər şikayəti müvafiq yuxarı seçki komissiyasına təqdim edə bilərlər. 112.3-cü maddədə isə göstərilir ki, şikayət ilkin olaraq yuxarı seçki komissiyası tərəfindən təmin edilməzsə, həmin şəxslər dairə seçki komissiyasının qərarından və ya hərəkətindən (hərəkətsizliyindən) Mərkəzi Seçki Komissiyasına şikayət edə bilərlər.

65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən Bəylik bələdiyyəsi üzrə qeydə alınmış namizəd Həsənov Tarverdi Mövsüm oğlunun 2014-cü il dekabrın 25-də Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətində 20 və 21 saylı seçki məntəqələrində qanun pozuntuları olduğunu bildirmiş və müvafiq tədbirlər görülməsini xahiş etmişdir..

Göründüyü kimi müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdur. Belə halda, yəni şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olduqda "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 8.6-cı bəndinə görə həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 8.6-cı bəndinə əsasən r ə y ə g ə l d i m :

1. 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi üzrə Bəylik bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Həsənov Tarverdi Mövsüm oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2014-cü il tarixli 50 saylı müraciəti araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü İradə Hacıyeva